### Cəlil Məmmədquluzadə-140

# "Oyanan Şərqin vicdan səsi"

**Naxçıvan Dövlət Universitetində "Cəlil Məmmədquluzadə və müasir dünyaya baxış" adlı elmi konfrans keçirilib.**

NDU-nun Jurnalistika və dünya ədəbiyyatı kafedrasının təşkil etdiyi konfransı rektor, akademik, görkəmli mirzəcəlilşünas İsa Həbibbəyli açaraq böyük ustadın millətini cəhalətdən, mövhumatdan, gerilikdən qurtarmaq yolundakı misilsiz fəaliyyətindən ətraflı bəhs edib, Mirzə Cəlil yaradıcılığını "oyanan Şərqin vicdan səsi" kimi qiymətləndirib. Natiq qeyd edib ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin zəngin irsi, bədii-estetik düşüncəsi tariximizin parlaq səhifələrindəndir.

Konfransda tarix elmləri namizədi Vaqif Məmmədov "Molla Nəsrəddin"də erməni xisləti", filologiya elmləri namizədi Şəhla Şirəliyeva "Cəlil Məmmədquluzadə yaradıcılığının ekran həyatı", filologiya elmləri namizədi Xumar Məmmədova "Molla Nəsrəddin" mövzusu müasir Amerika elmi-ədəbi mənbələrində", filologiya elmləri namizədi Seyid Surə "Satirik gülüşün qüdrəti", filologiya elmləri namizədi Mehriban Sultan "Cəlil Məmmədquluzadə və demokratik cəmiyyət quruculuğu tariximiz" mövzularında məruzələr ediblər.

Qeyd olunub ki, klassik Azərbaycan və dünya bədii fikir ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnən sənətkarın milli oyanışa səsləyən yaradıcılığı həm Qafqaz xalqlarının, həm də bir sıra Şərq ölkələrinin ədəbiyyatlarına böyük təsir göstərib. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə çap olunan "Molla Nəsrəddin" jurnalı ölkənin ədəbi-publisistik həyatında müstəsna rol oynayaraq, milli məfkurənin formalaşmasına layiqli töhfə verib. Konfrans tələbələrin ifasında Mirzə Cəlilin əsərlərindən parçaların qiraəti ilə yekunlaşıb.

Tədbirdə Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığını əks etdirən videoslayd da nümayiş olunub.

**Nərmin CƏFƏROVA,**
**NDU-nun Mətbuat şöbəsinin əməkdaşı**

# Gənc fototuristlər Norveçdən xoş təəssüratla qayıdıblar



Bakının Nizami rayonundakı Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Gənc fototurist" dərnəyinin üzvləri bu yaxınlarda Norveçdəki beynəlxalq uşaq düşərgəsində keçirilən toplantıda Azərbaycanı layiqincə təmsil ediblər.

Asudə vaxtlarını maraqlı və şən keçirmiş uşaqlar proqram çərçivəsində yürüşlərə, təbiət qoynuna gəzintilərə çıxmış, müxtəlif tədbirlərdə fəallıq göstəriblər. Yaradıcılıq mərkəzinin üzvləri Norveçin tarixi yerləri və muzeyləri ilə yaxından tanış olublar.

Dərnək üzvləri Norveçdə olduqları müddətdə "Azərbaycan günü" təşkil etmiş, orada Azərbaycana həsr olunmuş fotosərgi, eyni zamanda milli mətbəximizi, kulinariyamızı,həmçinin milli rəqslərimizi nümayiş etdiriblər.

Oktyabrın 5-də Norveçin Azərbaycandakı səfiri yaradıcılıq mərkəzinə gələrək uşaqların düşərgə həyatından hazırladıqları fotosərgiyə və fotofilmə baxmışdır.

**Sifai SƏFƏROVA**

# Bilik yarışmasının qalibi ilə görüş

Ağcabədi rayonunda Təhsil Nazirliyinin və Azad Azərbaycan Teleradio şirkətinin təşkilatçılığı əsasında təşkil olunmuş "LC - Bilik Akademiyası" yarışmasının qalibi 2 nömrəli məktəbin şagirdi Fərhad Həsənovla görüş keçirilib.

Görüş iştirakçıları öncə Heydər Əliyev meydanına toplaşaraq ulu öndərin abidəsi önünə gül dəstələri qoyub xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə RTŞ-ın müdiri Mehdi Əhmədov bildirdi ki, bu qələbə təkcə Fərhadın deyil, bütün Ağcabədi təhsilinin uğurudur. Bu uğurun gələcəkdə də davam etdirilməsi yolunda davamlı və planlı işlər görüldüyünü nəzərə çatdıraraq Fərhad Həsənovun müəllimlərinə və valideynlərinə minnətdarlıq edib.

Sonra iştirakçılar yarışmanın final mərhələsini ekran vasitəsilə izləyərək qalibi bir daha alqışlayıblar.

Tədbirdə 2 nömrəli məktəbin direktoru Tahir Əliyev və bir neçə əlaçı şagirdlər də çıxış edərək qeyd ediblər ki, məktəbimizin respublika səviyyəsində əldə etdiyi bu uğur bizi çox sevindirir və gələcəkdə nailiyyətlər qazanmağımıza ruhlandırır.

Sonda rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov qalibi təbrik edərək onu qiymətli hədiyyələrlə mükafatlandırıb.

**Niyazi RƏHİMOV**

# "Xəmsə" milli intellektual oyununun Bakı şəhəri üzrə zona mərhələsi keçirilib

Gəncliyə Yardım Fondunda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən "Xəmsə" milli intellektual oyunu üzrə uşaq və yeniyetmələr arasında birinci Azərbaycan çempionatının Bakı şəhəri üzrə zona mərhələsi keçirilmişdir.

AzərTAc xəbər verir ki, oyunda yaşı 14-dən 17-dək olan yeniyetmələrdən ibarət hər birində 5 əsas və 2 ehtiyat oyunçu olan komandalar iştirak etmişlər. Yarışa paytaxtın 11 rayon komandası ilə yanaşı, Şuşa, Laçın, Zəngilan rayonlarının komandaları və Sumqayıt şəhərinin 2 komandası da mübarizəyə qoşulmuşlar.

Yarışın keçirilməsində məqsəd uşaq və yeniyetmələrin intellektual səviyyələrinin artırılması, intellektual oyunların uşaq və yeniyetmələr arasında təbliğ olunması, eləcə də onların asudə vaxtlarının səmərəli və maraqlı təşkilində yeni üsulların təbliğ edilməsindən ibarətdir.

Oyunda Sumqayıt şəhərinin "Pənc gənc" komandası bütün rəqiblərinə qalib gələrək 1-ci yerə, Suraxanı rayonunun "Atəşgah" komandası 2-ci yerə, Sumqayıt şəhərinin "Türküstan" komandası 3-cü yerə və Şuşa rayonunun "Qala" komandası isə 4-cü yerə layiq görülmüşlər.

Zona mərhələsində mükafata layiq görülən hər bir komanda BŞGİBİ tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunmuşlar.

Qeyd etmək istərdik ki, Bakı şəhəri üzrə zona mərhələsində mükafata layiq görülmüş komandalar "Xəmsə" milli intellektual oyunu üzrə birinci Azərbaycan çempionatının final mərhələsinə vəsiqə qazanmışlar.

### *İdman aləmində*

## Milli Qəhrəman Əliyar Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə respublika turniri keçiriləcək

Oktyabrın 9-dan 11-dək "Abu Arena" idman kompleksində Milli Qəhrəman, SSRİ idman ustası, əməkdar məşqçi Əliyar Əliyevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə gənclər arasında respublika turniri keçiriləcəkdir. Turnir Milli Qəhrəman Əliyar Əliyevin xatirəsini yad etmək, gəncləri vətənpərvər ruhda tərbiyə etmək və sərbəst və yunan-Roma güləşinin inkişafına və kütləviliyinə nail olmaq məqsədilə keçirilir.

FİLA-nın mövcud qaydalarına əsasən 50, 55, 60, 66, 74, 84, 96 və 120 kq-a qədər çəki dərəcələri üzrə keçiriləcək yarışlarda Azərbaycan Güləş Federasiyasının nümayəndələri və ayrı-ayrı idman cəmiyyətlərindən 1990-1992-ci illər təvəllüdlü idmançılar iştirak edəcəklər. Turnirin rəsmi açılış mərasimi isə oktyabrın 10-da keçiriləcəkdir.

## "Cənub mirvarisi-2009" III futbol çempionatında final mərhələsinin oyunları keçirilib

"Pal süd" MMC-nin baş sponsorluğu və Cənub Regional Futbol Federasiyasının təşkilatçılığı ilə 1996-1997-ci il təvəllüdlü yeniyetmələr arasında keçirilən "Cənub mirvarisi-2009" III futbol çempionatının final mərhələsinin növbəti oyunları keçirilmişdir.

Cəlilabad şəhərində Lənkəranın "Xəzər-92" komandası ilə Neftçalanın "UGİM" komandaları arasındakı görüş 2:2 hesabı ilə nəticələnmişdir. Cəlilabadın "UGİM" komandası Masallının "Bələdiyyə" komandasına 2:0 hesabı ilə qalib gəlmişdir.

Final mərhələsinin ikinci oyununda "Xəzər-92" 3:1 hesabı ilə "Bələdiyyə"ni, Cəlilabadın "UGİM" komandası isə 1:0 hesabı ilə Neftçalanın "UGİM" komandasını məğlub etmişdir. Yarış cədvəlinə iki oyundan 6 xal toplayan Cəlilabadın "UGİM" komandası başçılıq edir. "Xəzər-92"-nin 4, Neftçalanın "UGİM" komandasının 1 xalı vardır.

Növbəti oyunlar oktyabrın 11-də Cəlilabad şəhərində keçiriləcəkdir. Həmin gün "Xəzər-92" Cəlilabadın "UGİM", "Bələdiyyə" isə Neftçalanın "UGİM" komandaları ilə görüşəcəklər.

## Azərbaycanın yeniyetmə idmançıları boks üzrə Avropa birinciliyində üçüncü yeri tutublar

Anapada məktəblilər arasında boks üzrə VII Avropa birinciliyinin final mərhələsi keçirilmişdir. Azərbaycanın yığma komandası yarışlarda 1 qızıl, 1 gümüş və 6 bürünc medal qazanmışdır. Qızıl medalın sahibi 41,5 kq çəki dərəcəsində çıxış etmiş Ələkbər Baxşəliyevdir. Gümüş medala Telman Qafarlı (54 kq), bürünc medallara isə İbrahim Məlikov (38,5 kq), Rahid Həbibzadə (40 kq), Məsud Yusifzadə (46 kq), Mirsəmid Ələkbərov (48 kq), Məhəmmədəli Tahirov (72 kq) və Rahil Məmmədli (76 kq) sahib olmuşlar.

Ümumkomanda hesabında Azərbaycan yığması Rusiya və Ukrayna komandalarından sonra üçüncü yeri tutmuşdur.

Xatırladaq ki, çempionatda 17 ölkədən 155 yeniyetmə idmançı iştirak etmişdir.

**AzərTAc**

### *Yeni nəşrlər*

# "Ulu yurd yerlərimiz"

Xalq şairi Səməd Vurğun insan hissləri içərisində ən qüdrətli və təsirli olaraq vətənpərvərlik duyğusunu qiymətləndirmişdir. Bu hissin oyanması, formalaşması və qüvvətli faktora çevrilməsində vasitələrdən biri uşağın, gəncin, ümumiyyətlə vətəndaşın yurd yerlərinə sevgisidir. Həmin hissin aşılanmasında yurd yerləri tarixinin qədimliyinə maraq və heyrətin rolu böyükdür.

Bu heyrət və marağın oyadılmasında mütaliə əvəzsizdir. "Göyərçinin kitabxanası" seriyasından buraxılmış "Ulu yurd yerlərimiz" (Bakı: Azərbaycan, 2009, 19 s.) kitabçasında toplanmış tarixi mövzuda yazılar yığcam, öyrədici və tərbiyəvi materiallardır. Müəllif R.Yusifoğlunun qələmə aldığı ədəbi-publisistik üslubda məqalələrdə Qobustan, Azıx mağarası, Gəmiqaya, Beyləqan, Naxçıvan, Şamaxı, Abşeron abidələri, Dərbənd, Bərdə, Qəbələ, Çardaqlı, Şabran, Şörələpə, Astrabad, Ağbil türbələri haqqında yığcam, anlaşıqlı informasiya çatdırılır.

Kiçikyaşlı oxucular üçün nəzərdə tutulmuş kitabçadakı materiallara çəkilmiş rəsmlər öz milli və tarixi cizgiləri ilə emosionallıq və bədiiliyi artırır.

Xalqın tarixi, qədim yaşayış məskənləri, şəhərləri barədə məlumat çatdıran kitabça tarixi-mədəni yadigarlar barədə dəyərli ədəbiyyat sayıla bilər.

# Kənd müəlliminin 80 yaşı qeyd olunub

**Bu günlərdə Biləsuvar rayonu Bağbanlar kənd orta məktəbinin rus dili müəllimi Yelizaveta Gerasimonkonun 80 illik yubileyi qeyd olunub.**

Tədbirdə Biləsuvar Rayon Təhsil Şöbəsinin müdiri Qənbər Bağırov çıxış edərək bildirib ki, Yelizaveta Gerasimonko ömrünün 60 ilini pedaqoji fəaliyyətə həsr edib. Qabaqcıl müəllim kimi dəfələrlə pedaqoji təcrübəsi rayonun məktəbləri arasında geniş yayılıb. Onun keçdiyi həyat yolu bugünkü gənclərimizə, xüsusən gənc müəllimlərimizə böyük örnəkdir. Tədbirdə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Biləsuvar Rayon Komitəsinin sədri S.Rzaquliyeva, müəllimlərdən H.Bəhmənov, Q.Cavadov, S.Mirzəyev, X.Abıyeva və başqaları yubilyara təbriklərini çatdırıblar.

Sonda Y.Gerasimonkoya rayon təhsil şöbəsi tərəfindən Fəxri fərman və hədiyyə təqdim olunub.

**Şakir CƏFƏROV**

# "İnformasiya texnologiyaları Akademiyası" layihəsi Masallı və Cəlilabadda davam etdirilir

"İRƏLİ" ictimai birliyinin "İnformasiya texnologiyaları Akademiyası" layihəsi çərçivəsində yeni təlimlərə start verilib.

İctimai birlikdən bildirmişlər ki, növbəti təlimlər Masallı və Cəlilabadda keçirilir.

Masallıda 140, Cəlilabadda isə 170 nəfər təlimlərdə iştirak edir. Xatırladaq ki, layihənin məqsədi regionlarda gənclərin informasiya və kommunikasiya texnologiyaları sahəsində maarifləndirilməsi, onlarda ilkin biliklərin formalaşdırılmasıdır.

# Etibarsız sayılır

**Bakı şəhəri** 167 nömrəli orta məktəbi 2006-cı ildə bitirmiş Əliyeva Mirvari Çingiz qızına verilmiş B-289412 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 176 nömrəli orta məktəbi 2008-ci ildə bitirmiş Həmidli Səbinə Zabil qızına verilmiş B-498804 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2008-ci ildə Adıgözəlov Adim İlqar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** 2 nömrəli orta məktəbin XII axşam sinfini 2000-ci ildə bitirmiş Məmmədov Nahid Əli oğluna verilmiş A-326908 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**A.Zeynallı adına Musiqi Kolleci** tərəfindən 2006-cı ildə Yaqubova Ləman Habil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Əsgərli Anar Asəf oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 246 nömrəli orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynov Elmidar Vahid oğluna verilmiş A-030966 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2005-ci ildə Əliyev Əli Məhəmmədəli oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1991-ci ildə Cəfərova Kəmalə Kamil qızına verilmiş ЦВ-831488 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1997-ci ildə Ələkbərov İsmayıl Xəlil oğluna verilmiş A-000475 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Məmmədova Vüsalə Xudaverdi qızına verilmiş 37046 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kollecinin Sumqayıt şöbəsini** 2000-ci ildə bitirmiş Seyidov Vüsal Ramiz oğluna verilmiş AB-II-091464 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli orta məktəbi 1994-cü ildə bitirmiş Salmanova Şəfəq İsa qızına verilmiş 247 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 13 nömrəli məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Qəhrəmanov Tural Rauf oğluna verilmiş 684436 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2008-ci ildə Əliyev Anar Səadət oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** Kövər kənd orta məktəbini 2003-cü ildə bitirmiş Həsənov Mədaim Əslixan oğluna verilmiş 660733 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2006-cı ildə Xanlarov Samir Zakir oğluna verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2001-ci ildə Bayramov Rahim Sənan oğluna verilmiş A-083684 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 288 nömrəli məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Səmədov Əzim Pərviz oğluna verilmiş A-765962 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 20 nömrəli məktəb-liseyi 2009-cu ildə bitirmiş Əfəndiyeva Lalə Vaqif qızına verilmiş B-588684 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 14 nömrəli orta məktəbi 1997-ci ildə bitirmiş Qəhrəmanov Firdovsi Firudin oğluna verilmiş 178617 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2005-ci ildə Rizayeva Aygün Feyzi qızına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 163 nömrəli orta məktəbi 1994-cü ildə bitirmiş İbrahimova Aynurə Həşim qızına verilmiş A-106234 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə-İqtisad Kolleci** tərəfindən 1998-ci ildə Yusifova Zeynəb Oqtay qızına verilmiş AB-II-036876 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli orta məktəbi 1989-cu ildə bitirmiş Mahmudov Emin Mahmud oğluna verilmiş 643584 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2007-ci ildə Fətullayev Cavad Mirzə oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**ADNA** tərəfindən 2009-cu ildə Qənbərli Aysel Hikmət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılr.

**ADNA** tərəfindən 2006-cı ildə Şahbazov Ələsgər Rövşən oğluna verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin kollektivi Cəbrayıl Rayon Təhsil Şöbəsinin müdiri **Validə Həsənovaya** bacısı

**TAMARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağababa İbrahimov, Arzu Qarayev, Tərane Aslanova və Elnur Əlizadə Naxçıvan MR Təhsil Nazirliyinin əməkdaşı **Məmmədhəsən Məmmədova** əmisi

**RƏHİM RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Masallı rayonu Qodman kənd orta məktəbinin pedaqoji kollektivi məktəbin qocaman müəllimi

**BƏŞİR KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Sarvan Bəhluloğlu qocaman müəllim

**BƏŞİR KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin kollektivi liseyin tədris işləri üzrə direktor müavini **Çingiz Cəlilova** qardaşı

**MAQSUD CƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Müəllimlər İnstitutunun rəhbərliyi və professor-müəllim heyəti Təhsil Nazirliyinin Maddi-texniki təchizat idarəsinin rəisi **Fikrət Nəbiyevə** anası

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri 247 nömrəli orta məktəbin direktoru M.Əliquluyev və pedaqoji kollektivi məktəbin tarix müəllimi **Firqiyyə Rəcəbovaya** oğlu

**ŞƏRİF ƏSGƏROVUN**

faciəli vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri 206 nömrəli orta məktəbin direktoru İbadət Əliyeva və pedaqoji kollektivi iş yoldaşları **Gülsəfa Mirzəyevaya** həyat yoldaşı

**İSGƏNDƏR MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdaş Dövlət Humanitar Kollecinin direktoru Tənzilə Şıxıyeva və pedaqoji kollektivi Təhsil Nazirliyinin Maddi-texniki təchizat idarəsinin rəisi **Fikrət Nəbiyevə** anası

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdaş Dövlət Humanitar Kollecinin direktoru Tənzilə Şıxıyeva və pedaqoji kollektivi Təhsil Nazirliyinin Mühasibat uçotu və hesabat sektorunun müdiri **Fərhad Əliyevə** qardaşı

**XOSROV ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bayram HÜSEYNZADƏ

AZ 1073, Bakı-73, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Qəzet hər həftənin cümə günü çıxır.

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur.

| | |
|---|---|
| Qəbul otağı və faks | - 439-20-77; |
| Baş redaktor müavini | - 438-21-66; |
| Məsul katib | - 438-21-55; |
| Ali və orta ixtisas təhsili şöbəsi | - 438-66-05; |
| Ümumi orta və peşə təhsili şöbəsi | - 438-51-41; |
| Məktublar şöbəsi | - 432-19-63; |
| Reklam və elanlar üzrə menecer | - 439-20-77; |
| Mühasibatlıq | - 439-67-74; |
| Müxbirlər | - 439-19-74; |
| | - 439-64-00; |
| | - 510-68-73. |

LİSENZİYA № 022327

Redaksiyaya daxil olan əlyazmalar geri qaytarılmır.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

İNDEKS: 0003 | TİRAJ 12.206 | SİFARİŞ 4115

Məsul növbətçi: Ə.DAŞDƏMİRLİ

BANK HESABIMIZ: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti. Kodu: 505754. VÖEN: 1300017201. Müxbir hesabı: 0137010015944. S.W.I.F.T. Bik: UBAZAZ 22 "Azərbaycan müəllimi" qəzeti redaksiyası Hesab № 3308021. VÖEN: 1300397831